# Qaldırım kədər dağımı, qardaş

Dilim də söz tutmur dərdimi yazım,
Yenə də bir matəm çağımı, qardaş.
Tökülən qanlarda qalıbdır gözüm...
Hara yazım bu göz dağımı, qardaş.

O qırğın, müsibət, yenəmi gəldi,
Bu xalqa dönə-dönəmi gəldi?
Dünyanın dərd-qəmi mənəmi gəldi?
Nə qədər oxşayım, ağımı qardaş?

Bir dönməz əsgərəm, el yolunda mən,
Gəlmərəm dünyaya, bir də yenidən.
Imkan ver, bu qanı götürüm yerdən,
Qurtarım bağımı-bağçamı, qardaş.

Verim lap sonuncu göz yağımı mən,
Didim, parçalayım öz yağımı mən.
Qoruyub Azəri torpağını mən,
Qaldırım kədər dağımı, qardaş.

Səlimoğlu M. Qaldırım kədər dağımı qardaş : şeir // Azərbaycan. - 1992. – 16 yanvar.